# Qara Qarayev adına mərkəzi incəsənət məktəbi

Respublikamızda fəaliyyət göstərən uşaq incəsənət və musiqi məktəbləri uşaq və yeniyetmələrin estetik-etik tərbiyəsində mühüm rol oynayır. İncəsənət təmayüllü bu məktəblər təkcə uşaqların estetik tərbiyəsi, onların incəsənətin müxtəlif sahələri üzrə duyumu ilə deyil, eyni zamanda uşaqların ümumtəhsil məktəblərindəki dərslərindən sonra asudə vaxtlarının düzgün qurulmasında da mühüm rol oynayır. Bu baxımdan respublikamızda bir çox musiqi və incəsənət məktəbləri fəaliyyət göstərir ki, onların da bir çoxu Bakı şəhərindədir. Bakı şəhərində fəaliyyət göstərən incəsənət təmayüllü məktəblər arasında nümunəvi tədris müəssisələrindən biri də Bakı şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin Qara Qarayev adına mərkəzi İncəsənət Məktəbidir.



Məktəbin direktoru, təcrübəli musiqiçi, Əməkdar artist Əziz Qarayusifli ilə söhbət edərkən məlum oldu ki, bu məktəb şərəfli bir yol keçmişdir. Belə ki, məktəb Bakı şəhər xalq deputatları Soveti İcraiyyə Komitəsinin müvafiq arayışı ilə 1937-ci il sentyabr ayında leytenant Şmidt adına zavodun nəzdində fəaliyyətə başlamışdır. 1940-cı ildə məktəb 8 nömrəli, 7 illik uşaq musiqi məktəbi statusu almışdır.

1989-cu ildə məktəbə dahi bəstəkar Qara Qarayevin adı verilmişdir. Respublikamızdakı mövqeyi, fəaliyyəti nəzərə alınaraq bu məktəb 11 illik musiqi məktəbi statusuna layiq görülmüşdür. Məktəbin direktoru, əməkdar artist Əziz Qarayusifli məktəb barədə söhbət edərkən onu da qeyd etdi ki, 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fərmanı ilə məktəb əsaslı təmir olunmuşdur. Eyni zamanda məktəb əyani, texniki, müasir avadanlıqlarla, musiqi alətləri ilə də təchiz edilmişdir.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05/9, 2013-cü il tarixli 246 nömrəli qərarı ilə məktəbə Mərkəzi İncəsənət məktəbi adı verilmişdir.

Məktəbin fəaliyyəti ilə tanış olarkən aydın oldu ki, son zamanlar, respublikanın əməkdar artisti Əziz Qarayusifli bu məktəbə rəhbərlik etdikdən sonra isə burada hər sahədə dönüş yaradılmış, dərslərin keyfiyyəti yüksəlmiş, məktəbi bitirən məzunların musiqi təmayüllü ali və orta ixtisas məktəblərə qəbul faizi daha da yüksəlmişdir. Əziz müəllimin apardığı pedaqoji məqsədyönlü fəaliyyət nəticəsində məktəbə təcrübəli və ali ixtisaslı müəllimlər cəlb edilmişdir ki, bunun da nəticəsində dərslərin keyfiyyəti yüksəlmiş, uşaqların musiqiyə və incəsənətin digər sahələrinə marağı daha da artmışdır.

Fərəhlə qeyd etməliyik ki, məktəbin müəllim və şagird kontingenti artmışdır. Belə ki, indi məktəbdə 95 müəllim və 500 nəfər şagird vardır.

Burada bir çox şöbələr fəaliyyət göstərir. Məsələn, fortepiano, nəzəriyyə, ümumi fortepiano, ansambl və müşayiət, xalq çalğı alətləri, orkestr alətləri, xoreoqrafiya, rəssamlıq şöbələri bu qəbildəndir. Onu da qeyd etmək lazımdır ki, bu şöbələrdə təhsil alan məzunların çoxu respublikamızın bir çox musiqi təmayüllü ali və orta ixtisas, uşaq musiqi və incəsənət məktəblərində uğurla çalışır.



Söhbət əsnasında Əziz müəllim onu da qeyd etdi ki, məktəbin müəllim kollektivi təkcə dərsin keyfiyyətini yüksəltməklə kifayətlənmir, eyni zamanda respublika əhəmiyyətli tədbirlərin təşkili və keçirilməsində, konsertlərin təşkilində də yaxından iştirak edir.

Təkcə onu qeyd etmək lazımdır ki, məktəb cari ilin 6 ayında respublika əhəmiyyətli bir çox tədbirlərdə yaxından iştirak etmişdir. Məsələn, “20 Yanvar” faciəsi, Q.Qarayevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş konsert-mühazirə, “Xocalı soyqırımı”, “Multikulturalizm—həyat tərzi”, “Novruz bayramı” adlı konsert, bəstəkar Qənbər Hüseynlinin anadan olmasının 100 illiyi ilə əlaqədar xatirə gecəsi, ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 93-cü illiyi ilə bağlı konsert tədbirləri bu qəbildəndir.

**Zabit CAVADOV,**
**“Respublika”.**

Respublika.- 2016.- 11 oktyabr.- S. 12.